





# ALTIAĞACDA

Xəzər Universitetinin kollektivi iyunun 15-də Xızı rayonunda yerləşən Altıağac Milli Parkında bir günlük istirahətdə oldu. Səyahətə səhər tezdən universitetin qarşısından 68 nəfər əməkdaşın iştirakı ilə start verildi. Səyahəti yüksək səviyyədə keçirmək üçün 8 nəfərlik Təşkilat Komitəsi yaradılmışdı. Səfərdə universitet əməkdaşları ilə yanaşı, Türkiyə Cümhuriyyətindən olan 5 nəfər və Çin Xalq Respublikasının Bakıda fəaliyyət göstərən 2 nəfər nümayəndəsi də iştirak edirdi. Əməkdaşlar və qonaqlar "Mərcan" İstirahət Mərkəzində gözəl istirahət etdilər. Onlar, həmçinin, universitetin Musiqi və incəsənət departamenti tərəfindən təşkil olunmuş musiqi proqramında xüsusi fəallıq göstərdilər.

Axşam saat 8 radələrində Xəzər Universitetinin istirahətə gedən kollektivi Bakıya yollandı. Geriyə dönüşdə bir günlük istirahətin yekunları müzakirə edildi. Çıxış edən hər kəs gözəl və yadda qalan istirahət üçün Xəzər universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya və səyahəti yüksək səviyyədə həyata keçirən Təşkilat Komitəsinin üzvlərinə təşəkkürlərini bildirdilər. Çin Xalq Respublikasının nümayəndələri H. İsaxanlıya və universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyliyə hədiyyələr təqdim etdilər.









## XƏZƏR UNİVERSİTETİNDƏ TƏLİMÇİ HAZIRLIĞI KURSU



Xəbər verdiyimiz kimi (jurnalımızın ötən nömrəsində), Xəzər Universiteti ilə Təhsil Nazirliyi arasında 2013-cü il mart ayının 28-də "İdarəetməyə dair qərarların verilməsi üçün şagirdlərin qiymətləndirmə nəticələrindən və monitorinq tədqiqatlarından istifadə" üzrə təlim kursu layihəsinin həyata keçirilməsi ilə əlaqədar bağlanan iş planına uyğun olaraq mayın 3-7-də universitetdə "Cito Qrup Türkiye" təşkilatının iştirakı ilə "Qiymətləndirmə və qiymətləndirmə nəticələrindən istifadə" mövzusu üzrə təlimçi hazırlanması kursu keçirilmişdi. Təlimçilər professor Ata Tezbaçaran və dosent Özgül Yılmaz-Tüzün idi. Mayın 7-də kurs başa catandan sonra nəticələr müzakirə olunmuş və türkiyəli təlimçilərə Xəzər universiteti adından hədiyyələr təqdim olunmuşdur.

## LAYİHƏ İDARƏETMƏ MƏKTƏBİ MƏZUNLARININ BURAXILIŞ MƏRASİMİ








İyunun 10-da "Hyatt Tower 3" - ün "Kişmiş zal"ında Layihə İdarəetmə Məktəbinin (The School of Project Management) ikinci qrup məzunlarının buraxılış mərasimi keçirildi. Məktəb BP, ESI International və Xəzər Universitetinin birgə layihəsi əsasında yaradılmışdır. Mərasimdə dövlət, QHT, yerli və beynəlxalq şirkətlərin təmsilçiləri iştirak edirdilər. BP-nin vitse-prezidenti Hüseyn Məmmədov, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, ESI İnternational təşkilatının nümayəndəsi Ed Hughes məzunları təbrik edərək, onlara uğurlar arzuladılar. BP Şirkətinin Azərbaycan-Türkiyə-Gürcüstan regionu üzrə prezidenti Gordon Birrell tərəfindən məktəbi müvəffəqiyyətlə bitirmiş 51 məzuna, o cümlədən Xəzər Universitetinin əməkdaşları Lyudmila Sotova və Xumar Hüseynovaya Corc Vaşinqton Universitetinin layihə idarəetməsi üzrə magistr sertifikatı təqdim olundu.

## MİNZU UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ



Çinin Minzu Universitetinin nümayəndələri - universitetin prorektoru professor Song Min başda olmaqla Beynəlxalq əlaqələr və Mərkəzi Asiya dilləri fakültəsinin müəllim və işçi heyəti iyunun 12-də Xəzər Universitetinin qonağı oldular. Bakı Dövlət Universitetinin Konfutsi İnstitutunun direktoru dosent Hu Fenghua nümayəndə heyətini müşayiət edirdi. Qonaqlar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitetin professor-müəllim heyəti ilə görüşdülər. Xəzər Universiteti haqqında qısa təqdimatdan sonra professor Song Min Minzu Universitetinin təhsil proqramları və missiyası barədə məlumat verdi. Gələcək əməkdaşlıq, o cümlədən tələbə mübadiləsi, beynəlxalq konfranslar barəsində fikir mübadiləsi aparıldı.

## TEXNOPARKLA BAĞLI TƏLİM

İyunun 13-də İsrailin "LN innovasiya texnologiyaları" şirkətinin təsisçisi və icraçı direktoru Klara Oren Xəzər Universitetində texnoparklar, biznes inkubasiya və beynəlxalq patent üzrə birgünlük təlim keçirdi. Təlim Xəzər Universitetinin İnnovasiya mərkəzinin direktoru Ayna Yusubova tərəfindən təşkil olunmuşdu. Təlimdə universitetin professor-müəllim və işçi heyəti iştirak etdilər.

Təlimdən sonra K. Oren Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İsrailin Azərbaycandakı səfiri Rafael Harpaz və missiya rəhbərinin müavini Ronen Krausz ilə görüşdü. Görüşdə Xəzər Universitetinin texnoparkı və İsrail müəssisələri ilə əməkdaşlıq perspektivləri müzakirə olundu.







## BÖYÜK BRİTANİYA UNİVERSİTETLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

İyunun 14-də Southampton Universitetinin Beynəlxalq əlaqələr bölməsinin əməkdaşı Donna Haynes və Kardiff Universitetinin Beynəlxalq ofisinin beynəlxalq əlaqələr üzrə nümayəndəsi Anne Morgan Xəzər Universitetində olub, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdülər. Görüşdə tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, Doktorantura, magistratura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyev, Beynəlxalq işlər üzrə prorektorun asistenti Maya Muxuradze də iştirak edirdilər. Tərəflər universitetlərarası əməkdaşlıq məsələlərini müzakirə etdilər. Qonaqlar universitetin laboratoriyaları, Mərmər zalı, mədəniyyət mərkəzləri ilə tanış oldular.

## ELSEVIER B.V. NƏŞRİYYATI İLƏ ƏMƏKDAŞLIQ



İyunun 20-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ELSEVIER B.V. nəşriyyatının Türkiyə üzrə nümayəndəsi Ayhan Akanay Saracoglunu və Orta Asiya üzrə nümayəndəsi Yildiz Kidiralievanı qəbul etdi.

Sonra qonaqlar Kitabxana İnformasiya Mərkəzi ilə tanış oldular və davamlı əməkdaşlıq etmək haqqında razılığa gəldilər.

## MULTİMEDİA FƏNNİNİN YEKUN DƏRSİ

İyunun 20-də Xəzər Universitetində IREX-in xüsusi proqramı olan, Vüsalə Əlibəylinin tədris etdiyi multimedia fənninin yekun dərsi keçirildi. Dərsdə tələbələrin hazırladıqları və aparıcılıq etdikləri verilişlər videoçarxlar vasitəsilə təqdim olundu. Təqdimatdan sonra dərsdə qonaq kimi iştirak edən Zeynal Məmmədli və Səadət Mehdiyeva (IREX), universitetin Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, Fəlsəfə və sosiologiya departamentinin müdiri Mail Yaqubov və Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədli çıxış edib tələbələrin işlərini dəyərləndirdilər. Sonda fənnin müəllimi Vüsalə Əlibəyli dərsi yekunlaşdırdı.














Tədbir professor Hamlet İsaxanlının və Xəzər Film və Animasiya Məktəbinin direktoru Aydın Əhmədzadənin çıxışları ilə başa çatdı.

Açılış mərasimində respublikada reklam, foto,video istehsalı və yayımı sahəsində tanınmış bir çox peşəkarlar iştirak edirdilər.

## BÖLGƏDƏ İLK VƏ YEGANƏ XƏZƏR FİLM VƏ ANİMASİYA MƏKTƏBİ YARADILIB

İyunun 13-də Bakıda –"*On3*" Şirkətlər Qrupunun binasında rəsmi buraxılış layihəsi olan Xəzər Film və Animasiya Məktəbi (Xəzər Universiteti Texnoparkı nəzdində) fəaliyyətə başladı. Rəsmi açılışı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı etdi. Sonra məktəbin yaranması zərurəti, onun fəaliyyət istiqamətləri və s. haqqında müxtəlif çıxışlar oldu.




## ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİ BARƏDƏ FİKİR MÜBADİLƏSİ



İyunun 20-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Argentinanın Azərbaycandakı səfirliyinin baş məsləhətçisi Gabriel Jorquero, La Plate Universiteti Beynəlxalq əlaqələr institutunun Avrasiya proqramının rəhbəri, La Plate Universitetinin Azərbaycan tədqiqatları kafedrasının müdiri Paulo Botta və Argentinanın Azərbaycandakı səfirliyinin Təhsil və mədəniyyət məsələləri üzrə müşaviri Tutu Yunusovanı qəbul etdi. Görüş zamanı La Plate Universitetində Azərbaycan tədqiqatları kafedrasının olduğu bildirildi və Xəzər Universitetində Latın Amerikası dilləri departamentinin açılması barədə təklif irəli sürüldü. Həmçinin, Azərbaycan və Argentina universitetləri arasında əlaqələrin genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı

# LUSOFONA UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI "XƏZƏR"DƏ



Portuqaliyanın Lusofona Sosial Elmlər və Texnologiya Universitetinin əməkdaşları Tereza do Rosario Damasio və Antonio Gameiro Xəzər Universitetinin koordinator olduğu "Avropa Birliyi Araşdırmaları üzrə dərs proqramlarının işlənib hazırlanması və qabiliyyətlərin inkişaf etdirilməsi" ("Curriculum Development and Capacity Building in the Field of EU Studies") adlı Tempus layihəsi çərçivəsində Xəzər Universitetində və Bakı Slavyan Universitetində olmuş və uyğun tədris proqramlarının təhlilini həyata keçirmişlər. Hər iki universitetdə Avropa Birliyi araşdırmaları proqramlarının geniş müzakirəsi olmuşdur.

İyunun 20-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qonaqları qəbul etmişdir. Görüşdə Xəzər Universiteti ilə Lusofona Universiteti arasında əməkdaşlığın perspektivləri müzakirə olunmuş, ikitərəfli əlaqələrin daha da genişləndirilməsi zərurəti qeyd olunmuşdur. Layihənin koordinatoru Baba Bayramlı görüşdə iştirak etmişdir.




## ABŞ-DA ÇAP OLUNMUŞ KİTABIN REDAKTORU "XƏZƏR"İN MÜƏLLİMİDİR

"Assa-İrada" informasiya agentliyinin direktoru, jurnalist, şərqşünas və yazıçı, filologiya üzrə fəlsəfə doktoru Fazil Güneyin "Yalanın gerçəkliyi" adlı kitabı ABŞ-da ingilis dilində çap olunmuşdur. Kitabın redaktoru Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə elmləri üzrə fəlsəfə doktoru Eldar Şahgəldiyevdir. Kitabda Qarabağ müharibəsinin yaratdığı problemlərdən əziyyət çəkən insanlardan, Sovet sisteminin süqutundan sonra ziyalıların üzləşdikləri bir sıra problemlər və sair hadisələrdən bəhs edən hekayə və povestlər toplanmışdır.

***http://www.amazon.com/Reality-Lie-Mr-Fazil-Guney/dp/1482306492***

# DƏRS İLİNİN YEKUN KONSERTİ





İyunun 21-də Xəzər Universitetinin “Dünya” konsert salonunda dərs ilinin yekun konserti keçirildi. Tədbiri giriş sözü ilə universitetin Fəlsəfə və sosiologiya departamentinin müdiri Mail Yaqubov açdı. O, Azərbaycan və Avropa klassik musiqisi haqqında danışdı, konsert barədə iştirakçıları məlumatlandırdı.

Konsert Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettasından bəzi fraqmentlərin nümayişi ilə başladı. Sonra dahi bəstəkarın “O olmasın, bu olsun” operettasından və “Koroğlu” operasından hissələr təqdim olundu, Fikrət Əmirovun “Sevil” operasından parçalar göstərildi. Musiqi gecəsi əməkdar artist Fidan Hacıyevanın ifaları ilə davam etdi.

Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın bədii rəhbərliyi və Opera və Balet Teatrının solisti, universitetin müəllimi Məhsəti Cabbarovanın rəhbərliyi ilə universitetin tələbələrindən ibarət xor kollektivi Azərbaycan və dünya musiqisindən nümunələr təqdim etdi, universitetin müəllimi Səbinə Minasazovanın rəhbərliyi altında rəqs ansamblı bəstəkar Arif Məlikovun “Məhəbbət əfsanəsi” baletindən hissələr göstərdi.

Sonda Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı yekun sözü ilə çıxış edərək, tədbirin təşkilatçılarına, ifaçılara və tamaşaçılara minnətdarlığını bildirdi.







## TƏLƏBƏLƏRİN YARADICILIQ SƏRGİSİ

İyunun 21-də Xəzər Universitetinin "Dünya" konsert salonundakı konsertlə tələbələrin musiqi yaradıcılığına baxış keçirən Musiqi və incəsənət departamenti iyunun 28-də universitetin Mədəniyyət mərkəzində onların rəssamlıq, xalçaçılıq və zərgərlik sahəsindəki fəaliyyətlərini əks etdirən yekun sərgi təşkil etdi. Tədbirdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, prorektor Rafiq Əhmədov, dekanlar, departament müdirləri, əməkdaşlar və tələbələr iştirak edirdilər.

Tədbiri Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova açaraq, tələbələrin tədris ili ərzindəki yaradıcılıq fəaliyyətləri barədə məlumat verdi. Sərgiyə baxışdan sonra tədbir şeir və musiqi ilə davam etdirildi. Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri Vurğun Əyyub, Fəlsəfə və sosiologiya departamentinin müdiri Mail Yaqubov Azərbaycan şairlərinin şeirlərindən nümunələr söylədilər, vokalçılar – əməkdar artist Fidan Hacıyeva, İlham Əsgəroğlu və universitetin müəllimi, Opera və Balet Teatrının solisti Məhsəti Cabbarova mahnılar ifa etdilər.

Sonda H. İsaxanlı çıxış edərək, sərgidə əl işləri nümayiş etdirilən tələbələrə uğurlar arzuladı, tədbirin təşkilatçılarına, ifaçılara minnətdarlığını bildirdi. Tədbir çay süfrəsi ətrafında başa çatdı.








## "ÇİN AZƏRBAYCANLILARIN GÖZÜ İLƏ" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iyunun 25-də "Hyatt Regency" otelinin Quba zalında Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (SAM) ilə ÇXR-ın Beynəlxalq Araşdırmalar Fondunun birgə əməkdaşlığı çərçivəsində nəşr edilən "Çin azərbaycanlıların gözü ilə" adlı kitabın təqdimat mərasimində iştirak etdi. Kitabda Hamlet İsaxanlının "Azərbaycan təhsilini dünyaya tanıtdıran ziyalı" başlığı altında "Böyük çaylar qərbdən şərqə doğru axır" adlı yazısı Azərbaycan və rus dillərində nəşr olunub. (*Məqalə jurnalın 20-24-cü səhifələrində dərc olunur*).

# FOTOXRONİKA

Sentyabr - 2012







QS WORLD UNIVERSITY RANKINGS®

QS (Quacquarelli Symonds) sentyabrın 11-də dünya universitetlərinin 2012-ci il üçün reytinq nəticələrini dərc edib.







## Oktyabr - 2012












## Noyabr - 2012






# YENİ KİTABIN TƏQDİMATI





# XƏZƏR UNİVERSİTETİNDƏ KOREYA MƏRKƏZİNİN AÇILIŞI







Dekabr - 2012





# VERCELLİDƏ
## POEZİYA FESTİVALI

# ELM VƏ SƏNƏT





# MƏCLİSİ

Yanvar - 2013







## QS ALİ MƏKTƏBLƏRİN DÜNYA ÜZRƏ YENİ REYTİNQİNİ AÇIQLAMIŞDIR

QS WORLD UNIVERSITY RANKINGS®

2013-cü ilin yanvarında dünya ali məktəblərinin ümumi gücü, müasirliyi, o cümlədən elektron-virtual dünyada tanınması əsas götürülərək, 21 mindən çox ali məktəb, o cümlədən Azərbaycanın ali məktəbləri öyrənilmiş, tədqiq olunmuşdur.






"KHAZAR UNİVERSİTY'S GOT TALENT"



Fervral - 2013





**XƏZƏR UNİVERSİTETİ**

**HAZIRLIQ MƏRKƏZİ**



**NİZAMİ RAYONUNUN MƏKTƏBLİLƏRİ İLƏ GÖRÜŞ**





## Mart- Aprel - 2013










## "TURAN ÇƏLƏNGİ"





## HÜQUQ TƏDRİS MƏRKƏZİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ

## May - İyun - 2013





# 10-cu OLİMPİADA






# KONFUTSİ İNSTİTUTUNUN FİLİALI AÇILDI







## "XƏZƏR"DƏ KARYERA SƏRGİSİ

